Bakı Dövlət Universiteti - 105

UOT 94(479.24)

SAMİR İSMAYILOV
tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin dosenti
samir.ismayilov@mail.ru

MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ ELMİ-PEDAQOJİ KADRLARIN HAZIRLIĞI VƏZİYYƏTİ (1991-1994)

DOI: https://doi.org/10.36719/2708-065X/106/36-42

Məqalədə 1991-1999-cu illərdə Bakı Dövlət Universitetində elmi-pedaqoji kadrların hazırlanmasının vəziyyəti araşdırılır. Araşdırmalardan məlumdur ki, müstəqilliyin ilk illərində Bakı Dövlət Universitetində elmi-pedaqoji kadrların vəziyyəti, elmi-pedaqoji kadrların hazırlanması ilə bağlı ciddi çətinliklər yaranmışdı. Buna bir tərəfdən təcavüzkar Ermənistanın əraziləri işğal etməsi nəticəsində respublikada yaranmış gərgin ictimai-siyasi vəziyyət, digər tərəfdən isə dərin sosial-iqtisadi çətinliklər fonunda ali məktəblərdə kadr hazırlığının lazımi səviyyədə təşkil olunmaması təsir edirdi. "Təhsil haqqında" Azərbaycan Respublikasının yeni Qanunu qəbul edilməsi respublikanın ali məktəblərində çoxpilləli təhsil sisteminə keçid, universitetdə elmi-tədqiqat işlərinin səmərəli təşkili və elmi-pedaqoji kadrların hazırlanmasında dönüş yaratdı.

Açar sözlər: BDU, ali təhsil müəssisəsi, elmi və professor-müəllim heyəti, müstəqillik, aspirant, doktorantura.

Giriş. 1991-ci ildən etibarən Bakı Dövlət Universitetində yüksək ixtisaslı elmi-pedaqoji kadrlar hazırlanması ən aktual məsələlərdən biri kimi qarşıda dayanırdı. Məlum olduğu kimi, universitetdə aspirantura pilləsi ilə bağlı hələ 1929-cu ildə "ADU yanında elmi işçilər (aspirantlar) hazırlanması qaydası haqqında" təlimat hazırlamışdı və elə o vaxt bu istiqamətdə xüsusi komissiya yaradılaraq elmi fəaliyyətə hazırlaşan şəxslər barəsində "aspirant" termini işlədilməsi barədə fikirlər irəli sürülmüşdü. 1929-cu ilin mayın 18-də Dövlət Elm Şurasının plenumunda ADU və APİ elmi işçilərinin mayın 12-də keçirilmiş ümumi yığıncağında aparılan müzakirələri əsasında "Elmi işçilər (aspirantlar) hazırlanması qaydası haqqında" əsasnamə qəbul olunmuş, əsasnamə 1929-cu il iyunun 11-də Azərbaycan SSR Xalq Maarif Komissarlığının kollegiyası tərəfindən təsdiq olunmuşdu. Onu da qeyd edək ki, universitet yarandığı ilk vaxtlarda onun elmi institutları olmadığına görə elmi-tədqiqat işləri kafedralarda, laboratoriya və klinikalarda aparılırdı. Elmi tədqiqat işlərinə ümumi rəhbərliyi 1920-ci il Nizamnaməsinə görə Elm Cəmiyyəti, 1922-ci il Nizamnaməsinə uyğun olaraq isə Elm Komitəsi həyata keçirirdi. Universitetdə aspirantura şöbəsi yaradıldıqdan sonra elmi-pedaqoji kadrların hazırlanması sistemli şəkil aldı və 1930-cı ildən keçən dövr ərzində Bakı Dövlət Universiteti dünya miqyaslı alimlər nəsli yetişdirdi [12, s.204].

Respublika həyatını müstəqilik dövrünün, yeni ictimai-iqtisadi formasiyanın tələblərinə uyğunlaşdırmaq üçün hələ 1990-cı ildən mütərəqqi addımlar atıldı. Azərbaycan SSR Xalq Təhsili Nazirliyi 1990-cı ilin aprel ayında "Aspiranturaya qəbul haqqında" əmr verdi. Təhsil nazirinin əmrinə əsasən ali məktəblərdə aspiranturaya qəbulu səmərəli təşkil etmək, ali məktəbləri fərqlənmə diplomu ilə bitirən gənc mütəxəssislərin həmin ildə müsabiqədə iştirakını təmin etmək nəzərdə tutulmuşdu [1, v.82].

Əmrdə, həmçinin, Nazirliyin tabeliyində olan ali məktəblərdə və elmi-tədqiqat pedaqoji institutunda aspiranturaya qəbulun ildə bir dəfə payızda aparılması, ali məktəb rektorlarının aspiranturaya qəbul aparılmasını təmin etmələri, əmrin yerinə yetirilməsinə nəzarətin Elm və ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması İdarəsinə tapşırılması qeyd olunmuşdu [1, v.82]. Təhsil Nazirliyinin müvafiq əmrindən bir qədər sonra, 18.02.1991-ci ildə Bakı Dövlət Universiteti üzrə əmr verildi. Əmrə əsasən, M.Ə.Rəsulzadə adına BDU-nun 1991-ci ildən özünümaliyyələşdirməyə keçməsi ilə əlaqədar olaraq Universitetdə məqsədli aspirant və dissertantların hazırlanması üçün illik təhsil haqqı xərcləri müəyyən edildi [14, v.135].

Aparılan araşdırmalar göstərir ki, 1989-1990-cı illərdə universitet elmi-pedaqoji kadrların hazırlanması işində ciddi çətinliklərlə qarşılaşmışdı. Buna bir tərəfdən Respublikanın dəyişən sosial-iqtisadi və cərəyan edən siyasi proseslər təsir edirdisə, digər tərəfdən isə elmi rəhbərlik sahəsində çətinliklər mövcud idi. Bəhs olunan məsələ ilə bağlı BDU-nun aspirantura şöbəsindən BDU-nun Elmi Şurasına göndərilmiş məktubda deyilirdi: "Elmi Şura üzvlərinin nəzərinə çatdırmaq istəyirik ki, Bakı Dövlət Universitetinin aspirant və dissertantlarına elmi rəhbərlik sahəsində çətinliklər yaranmışdır. Müəyyən elm sahələri üzrə elmlər doktorları və elmlər namizədləri olan elmi rəhbərlərin sayı azlıq edir. Buna görə də elmlər doktoru olan bir elmi rəhbər əsasnamədə nəzərdə tutulduğu kimi 5 deyil, bəzən 8, 10 və daha çox aspirant və dissertanta rəhbərlik etməli olur ki, bu da işin səmərəsini xeyli azaldır, həm də aspirantura şöbəsinin işində ciddi nöqsan sayılır..." [2, v.53].

Bakı Dövlət Universitetində kadrların hazırlanması və mövcud vəziyyəti haqqında 18 yanvar 1991-ci ildə verilmiş əmrdən məlum olur ki, 1 oktyabr 1990-cı il tarixinə qədər Bakı Dövlət Universitetində professor-müəllim heyətinin sayı 1158 nəfər olmuşdur. Professor-müəllim heyətinin tərkibinə daxil olanların 71%-nin (823 nəfərinin) elmi adı və elmi dərəcəsi vardır ki, bu da müvafiq ittifaq göstəricisindən yüksəkdir. Yaş tərkibində müsbət hal kimi qeyd edilməlidir ki, 889 nəfərin (59,5%) yaşı 50-yə qədərdir.

Universitetdə fəaliyyət göstərən 98 kafedradan 76-na elmlər doktorları (77,8%), 18-nə elmlər namizədləri (18,4%) rəhbərlik edir... Elmi-pedaqoji kadrların seçilməsi və istifadəsi sahəsində bəzi çatışmazlıqlar və nöqsanlar mövcuddur. Bir çox hallarda professor-müəllim heyəti üzvlərinin baza təhsili onların tutduqları vəzifəyə uyğun gəlmir. Bəzi kafedraların öz profilinə uyğun ixtisaslı elmi-pedaqoji kadrlarla təmin olunmasına lazımi diqqət yetirilməmişdir. Azərbaycan dili, riyaziyyat, tarix, kimya və s. fənlərin tədrisi metodikası üzrə kafedralarda işləyən alimlər arasında pedaqoji elm sahəsində dissertasiya müdafiə edənlər yoxdur.

Aspirantların bir çoxunun disseratsiya mövzusu müasir problemləri əhatə etmir, xalqımızın tarixinin, mədəniyyətinin, ədəbiyyatının, dilinin, eləcə də yeni elm sahələrinin tədqiq olunmasına yönəldilmir. İndiyədək universitetdə doktorantura yaradılmamışdır [11, v.56-60]. Bakı Dövlət Universitetində elmi-pedaqoji kadrların seçilməsi və istifadə olunması sahəsində mövcud nöqsanları aradan qaldırmaq məqsədilə Azərbaycan SSR Xalq Təhsili Nazirliyinin 18 yanvar 1991-ci il tarixli əmr verdi. Əmrdə deyilirdi: "1. Elmi-pedaqoji kadrların seçilməsi və istifadə olunması sahəsində BDU-nun işində nöqsanlar və çatışmazlıqlar qeyd edilsin. 2. Universitetin rektoru, akad. M.G.Qasımov yoldaşa tapşırılsın:..." [11, v.60]. Təhsil Nazirliyinin müvafiq əmrindən də göründüyü kimi, ötən əsrin 90-cı illərində Bakı Dövlət Universitetində elmi-pedaqoji kadrların vəziyyəti və hazırlanması yolunda nöqsanlar və çatışmazlıqlar qalırdı. Bu çatışmazlıqlar həm kadrlara rəhbərlik baxımından, həm də dissertasiya işlərinin müasir dövrün tələbləri baxımından yazılması, eləcə də müdafiəsində açıq şəkildə özünü göstərirdi.

Elmi-pedaqoji kadrların hazırlanması işində mövcud çətinlikləri aradan qaldırmaq və elmə həvəsləndirmə yaratmaq üçün Bakı Dövlət Universiteti 1991-ci ildən bir sıra qərarlar qəbul etdi. Belə ki, Bakı Dövlət Universiteti Elmi Şurasının 6 dekabr 1991-ci il tarixli qərarı ilə M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetində təhsil alan əyani aspirantların aylıq təqaüdləri artırılaraq 300 manat müəyyən edildi [3, v.109]. Bakı Dövlət Universiteti Elmi Şurasının 1991-ci il 6 dekabr tarixli iclasında, həmçinin, kənar müəssisə və təşkilatlardan BDU-ya namizədlik minimumu vermək üçün gələn aspirant və dissertantların xərclərinin göndərən təşkilatlar tərəfindən ödənilməsi qərara alındı [3, v.27].

1992-ci ildə BDU aspiranturasına qəbul haqqında məlumata görə, 1992-ci il qəbul planına əsasən BDU-ya 26 əyani, 34 qiyabi olmaqla cəmi 60 yer ayrılmış və bu yerlərə 31 əyani, 43 qiyabi olmaqla

74 sənəd təqdim olunmuşdur. Sənəd təqdim edənlərdən 41 nəfəri institutu fərqlənmə diplomu ilə bitirmiş, 31 nəfər aspiranta zəmanət verilmiş, 21 nəfər elmi məqalə müəllifi olmuşdur [9, v.19-20].

1992-ci ildən etibarən Bakı Dövlət Universitetində elmi-pedaqoji kadrların hazırlanması qaydaları Azərbaycan Respublikasının yeni Təhsil Qanunu ilə tənzimlənməyə başlandı. Belə ki, M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin Böyük Elmi Şurasının 27 noyabr 1992-ci il tarixli iclasının qərarı ilə Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi "Azərbaycan Respublikasının Təhsil Qanunu" yeni Azərbaycanın müstəqil təhsil sisteminin yaradılması yolunda atılmış ilkin və mühüm qanunvericilik addımı kimi qiymətləndirilir, Qanunda təhsilin strateji əhəmiyyətə malik olan və üstün inkişaf etdirilən fəaliyyət sahəsi elan olunması təqdirəlayiq hal hesab edilir, yeni tədris ilindən üçpilləli təhsil sisteminə keçirilməsi başlanılır, tələbə aspirant və pedaqoji işçilərin hüquqları, sosial müdafiəsi və imtiyazları diqqət mərkəzində saxlanılır, ixtisasartırma və kadrların yenidən hazırlanması sistemi təkmilləşdirilirdi [4, v.37-38].

Bakı Dövlət Universitetində elmi-pedaqoji kadrların hazırlanması işində çətinliklərin aradan qaldırılması 1993-cü ildə də Univerditetin Elmi Şurasının iclaslarında müzakirə mövzularından olaraq qalırdı. Belə ki, Universitetin aspirantura şöbəsinin fəaliyyətini yoxlayan komissiyanın məlumatından aydın olur ki, 1990-1992-ci illərdə aspirantura şöbəsinin fəaliyyəti qeyri-məqbul hesab edilmiş, bəzi aspirant və dissertantların minimum imtahan nəticələri ləğv edilmiş, Aspirantura şöbəsinin yeni rəhbərliyinə isə ciddi tapşırıqlar verilmişdir [15, v.6].

Bakı Dövlət Universiteti Elmi Şurasının 4 iyul 1994-cü il tarixli "Universitetdə aspirantura və dissertantura təhsilinin vəziyyəti haqqında" qərarından aydın olur ki, universitetin rektorluğu, dekanlıqları, kafedraları, təsərrüfat orqanları və ictimai təşkilatları 1989-1993-cü illərdə aspirantura və dissertantura təhsili yolu ilə yüksək ixtisaslı elmi-pedaqoji kadrlar hazırlanması sahəsində müəyyən iş görmüşlər. Belə ki, 1989-cu ildə aspiranturaya 29 nəfər (9 nəfər əyani, 20 nəfər qiyabi), 1990-cı ildə 40 nəfər (13 əyani, 27 nəfər qiyabi), 1991-ci ildə 49 nəfər (26 nəfər əyani, 23 nəfər qiyabi), 1992-ci ildə 62 nəfər (27 nəfər əyani, 35 nəfər qiyabi) qəbul edilmişdir [16, v.179].

1994-cü ildə M.Ə.Rəsulzadə adına BDU-nun aspiranturasına və dissertanturasına qəbulun keçirilməsinin yekunları haqqında arayışdan məlum olur ki, 1993-cü ildə BDU-da aspiranturaya qəbul olmamışdır. Arayışda yazılır: "Məlum olduğu kimi rektorluq 1994-cü il üçün aspiranturaya 101 nəfər, 41 nəfər əyani, 60 nəfər qiyabi qəbul edilməsini planlaşdırmış və bu barədə hələ 1994-cü ilin yanvar ayında Təhsil Nazirliyinə lazımi sənədlər təqdim edilmişdir. Subyektiv səbəblər üzündən 1993-cü ildə Respublikada Təhsil Nazirliyi sistemində, o cümlədən BDU-da aspiranturaya qəbul olmamasına baxmayaraq, Təhsil Nazirliyi və Respublika Elm-Texnika Komitəsi 1994-cü il üçün universitetin verdiyi sifarişi azaldaraq cəmi 46, 13 əyani, 33 qiyabi yer ayırmışdır. Əvvəlki illərdən fərqli olaraq universitet aspiranturaya sənədlərin qəbulunda iştirak etməmişdir və bu işi Təhsil Nazirliyi Azərbaycan Neft Akademiyasına həvalə etmişdir..."[17, v.9].

Arayışda daha sonra yazılır ki, aspiranturaya elan olunmuş 40 ixtisas üzrə 46 yerə 69 nəfər (20 əyani, 49 qiyabi) sənəd vermişdir. 4 ixtisasa – yüksək molekullu birləşmələr kimyası, filiz və qeyri-filiz yataqlarının axtarış və kəşfiyyat geologiyası, ətraf mühitin mühafizəsi, biokimyaya sənəd verilməmişdir. Yüksək bal toplayan 42 nəfər rektorun 08.12.1994-cü il tarixli əmri ilə aspiranturaya qəbul edilmişdir. Bunların 12 nəfəri əyani şöbəyə, 30 nəfəri qiyabi şöbəyə daxil olmuşlar. Rektorluq 1993-cü ildə aspiranturaya qəbul keçirilmədiyini nəzərə alaraq, habelə boş qalan 4 yeri itirməmək və müsabiqədən keçməyən gənclərin təhsilinə qayğı göstərərək həmin yerlərin başqa ixtisaslara verilməsi və plandan əlavə daha 6 yer ayrılması barədə Təhsil Nazirliyinə müraciət etməyi lazım bildi. Təhsil Nazirliyi rektorluğun əmrini müsbət həll etdikdən sonra əlavə 10 nəfər də aspiranturaya qəbul olundu. Bunların 3-ü əyani, 7 nəfəri isə qiyabi şöbəyə daxil oldu. Beləliklə, 1994-cü ildə aspiranturaya 52 nəfər, 15 əyani, 37 nəfər qiyabi aspirant qəbul olunmuşdur. Hazırda Universitetin aspirantura şöbəsində xarici vətəndaşlar da daxil olmaqla 63 əyani, 114 qiyabi (cəmi 177 nəfər) aspirant təhsil alır. Sənədlərin universitetə daxil olmasından qəbul imtahanlarının başlanmasına qədər çox az müddət qalmasına baxmayaraq, rektorluq, qəbul komissiyası, dekanlıqlar və müvafiq kafedraların birgə və səmərəli işi sayəsində qəbul imtahanlarının normal, tələbkarlıq və obyektivlik şəraitində keçirilməsi təmin edilmişdir [17, v.10].

1994-cü ildə BDU-nun dissertanturasına 99 nəfər qəbul edilmişdir. Bunların 26 nəfəri BDU-nun müxtəlif kafedralarında və elmi-tədqiqat laboratoriyalarında, qalanları isə respublikanın digər ali məktəblərində, təhsil müəssisələrində, redaksiyalarda, habelə dövlət və inzibati orqanlarda işləyən adamlardır. Hazırda universitetdə 198 nəfər dissertantura yolu ilə təhsil alır [17, v.11]. Universitetin Aspirantura şöbəsi tərəfindən hazırlanmış və 1994-cü ildə BDU-nun aspirantura pilləsinə qəbul planını və onun ümumi mənzərəsini əks etdirən arayışdan göründüyü kimi elmi-pedaqoji kadrların hazırlanması istiqamətində əvvəlki illərlə müqayisədə 1994-cü ildə qəbul planında və sənəd qəbulunda artım müşahidə olunmuşdur. Bununla belə, həm aspiranturaya, həm də dissertantura təhsilində çatışmazlıqlar qalmaqda idi. Fikrimizcə, respublikanın siyasi və sosial-iqtisadi çətinlikləri də buna birbaşa təsir edirdi. Xüsusilə 1988-ci ildən Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları ilə çıxış etməsi, 1992-ci ildən etibarən isə ərazilərimizin 20-%-nin Ermənistan tərəfindən işğal edilməsi, 1993-cü ilin siyasi böhranı bu və ya digər şəkildə olsa da BDU-da elmi-pedaqoji kadrların hazırlanmasına təsir edirdi.

Beləliklə, Universitetin Aspirantura şöbəsinin hazırladığı "Arayışı" əldə rəhbət tutan M.Ə.Rəsulzadə adına BDU-nun Elmi Şurası 3 fevral 1995-ci il tarixli iclasında aşağıdakı qərarı qəbul etdi: "1. 1994-cü ildə BDU-da aspirantura və dissertanturaya qəbulun keçirilməsi sahəsində Aspirantura şöbəsinin fəaliyyəti qənaətbəxş hesab edilsin və qəbulun yekunları təsdiq edilsin. 2. Aspirantura şöbəsinə tapşırılsın ki, yeni qəbul olunmuş aspirantların və dissertantların dissertasiya mövzularının, elmi rəhbərlərinin və fərdi iş planlarının 1 ay müddətində təsdiq edilməsini və aspiranturanın tədris planına uyğun olaraq dərslərin keçirilməsini təşkil etsin. 3. Dekanlara, kafedra müdirlərinə və aspirantura şöbəsinə tapşırılsın ki, 5 nəfər (3 aspirant, 2 dissertant) aspirant və dissertantı olanları aspirant və dissertantlara rəhbər təyin etməsinlər. 4. Aspirant və dissertantların fərdi iş planlarının vaxtında yerinə yetirilməsini təmin etmək məqsədilə onlara gündəlik qayğı və tələbkarlıq göstərilsin, kafedra iclaslarında, fakültə Elmi Şuralarında müntəzəm surətdə onların və elmi rəhbərlərin hesabatları müzakirə edilsin. 5. Universitetin elmi kitabxanasına tapşırılsın ki, aspirantların və dissertantların kitabxanada işləməsi və kitabxana fondundan istifadə etmələri üçün lazımi şərait yaratsın" [17, v.12].

Bakı Dövlət Universitetində elmi-pedaqoji kadrların iş planına uyğun olaraq M.Ə.Rəsulzadə adına BDU-da aspirantların və gənc tədqiqatçıların elmi konfransı təşkil olundu. Bununla bağlı olaraq 25 fevral 1995-ci il tarixli universitet rektorunun əmrində deyilirdi: "1. M.Ə.Rəsulzadə adına BDU-nun aspirantları və gənc tədqiqatçılarının elmi konfransı 1995-ci ilin aprelin 3-cü ongünlüyündə keçirilsin. 2. Konfransın hazırlanmasını və keçirilməsini təmin etmək üçün aşağıdakı tərkibdə təşkilat komitəsi yaradılsın: M.Ələsgərov – BDU-nun rektoru, B.Əsgərov-BDU-nun elmi işlər üzrə prorektoru, M.C.Mərdanov- BDU-nun tədris işləri üzrə prorektoru, S.X.Xəlilov – BDU-nun aspirantura şöbəsinin müdiri..." [18, v.72].

Müstəqillik illərində də universitetin akademik işçilərinin aktual elmi tədqiqatlarının nəticələrinin əsas dövri elmi orqanı "Xəbərlər" olaraq qalırdı. Sovet hakimiyyəti illərində "Xəbərlər" müxtəlif səbəblərdən fəaliyyətini dayandırsa da, 1991-ci ildə yenidən bərpa edildi. Bununla bağlı olaraq 14 may 1991-ci ildə "Bakı Universitetinin Xəbərləri" adlı elmi jurnalın təsis edilməsi və redaksiya heyətinin yaradılması haqqında rektorun əmri verildi. Universitet rektorunun 2 oktyabr 1994-cü il tarixli əmri ilə "Xəbərlər"in redaksiya heyətində dəyişiklik edildi"[5, v.37].

Universitetin elmi-pedaqoji kadrlarının "Bakı Universitetinin Xəbərləri" elmi məcmuəsi ilə təmasını daha sürətləndirmək üçün 1997-ci ildə Universitet Elmi Şurasının qərarı [6, v. 50] və rektorun daha bir əmri verildi.

Elmi tədqiqat işlərinin və elmi-pedaqoji kadrların əsas mərkəzlərindən biri də Universitet fakültələrinin kafedraları və elmi tədqiqat mərkəzləri idi. Müstəqilliyin ilk illərindən etibarən elmi-pedaqoji kadrların hazırlığını gücləndirmək məqsədilə Universitetdə bir sıra yeni elmi tədqiqat mərkəzləri yaradılaraq istifadəyə verildi. Belə elmi tədqiqat mərkəzləri universitetin bir çox fakültələrində yaradıldı. Bununla bağlı olaraq kimya fakültəsində "Kimyanın tədrisi metodikası" kafedrası bərpa edildi. 4 noyabr 1994-cü il tarixli universitet rektorunun əmrində bu barədə deyilirdi: "Böyük Elmi Şuranın 1994-cü il 14 oktyabr tarixli qərarına əsasən "Bakalavr" təhsil sisteminə keçidlə və eyni zamanda tələbələrin pedaqoji-metodoloji baxımdan kimya fənnindən tədrisə daha dərindən yiyələnmələri, həmçinin peda-

qoji praktikanın mütəşəkkil təşkili baxımından "Kimyanın tədrisi metodikası" kafedrası bərpa edilsin [19, v.31]".

Universitetin Tarix fakültəsinin tabeliyində yeni elmi tədqiqat mərkəzləri yaradıldı. Belə mərkəzlərdən biri tarix fakültəsi elmi şurasının təqdimatı və qərarı əsasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin 12 dekabr 1994-cü il tarixli əmri ilə yaradılmış "Dünya azərbaycanlıları (tarixi-demoqrafiya) elmi-tədqiqat laboratoriyası" idi [10, v.81]. Göründüyü kimi, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Universitet rəhbərliyi mühüm tarixi qərarla dünya azərbaycanlılarının həmrəyliyi tarixinə daha bir töhvə vermiş oldular. Bu elmi-tədqiqat mərkəzi həm də öz profilinə uyğun olaraq dünyada yaşayan Azərbaycan türklərini tarixi-demoqrafik baxımdan araşdırır, tədqiqatlar aparır.

BDU nəzdində elmi-tədqiqat institutlarından biri də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 noyabr 1991-ci il tarixli 395 saylı, Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyinin 16 dekabr 1991-ci il tarixli 920 saylı qərarı, BDU rektorunun 1 fevral 1992-ci il tarixli əmrinə əsasən yaradılmış "Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutu" idi [8, s.88].

Nəticə. Beləliklə, müstəqilliyin ilk illərində Bakı Dövlət Universitetində elmi-pedaqoji kadrların vəziyyəti, hazırlığı səviyyəsi ilə bağlı məlumatların araşdırılması, təhlili göstərir ki, elmi-pedaqoji kadrların hazırlanması işində ciddi çətinliklər var idi. Buna bir tərəfdən təcavüzkar Ermənistan tərəfindən ərazilərin işğalı nəticəsində Respublikada yaranmış gərgin ictimai-siyasi vəziyyət təsir edirdisə, digər tərəfdən dərin sosial-iqtisadi çətinliklərin fonunda universitetdə kadr hazırlığı məsələsinin lazımi şəkildə təşkil edilməməsi təsir edirdi. Hətta universitetdə bir çox elm sahələri üzrə elmlər doktorları olan elmi rəhbərlərin sayının az olması da kadr hazırlığına bu və ya digər şəkildə təsir edirdi. Aspirant və dissertantların çox hissəsi elmi işi başa çatdırdıqdan sonra müdafiə üçün uzun müddət növbəyə durmalı olur, əksəriyyəti isə dissertasiya mövzularını müdafiə edə bilmirdi. Bununla yanaşı, Azərbaycan Respublikasının yeni Təhsil Qanunu qəbul edildikdən sonra Respublika ali məktəblərində çoxpilləli təhsil sisteminə keçid Universitetin elmi-pedaqoji kadr hazırlığında, elmi-tədqiqat işlərinin səmərəli təşkil edilməsində bir dönüş yaratdı.

ƏDƏBİYYAT

1. Aspiranturaya qəbul haqqında. – BDU-nun Arxivi, f. 1, Əmrlər, 1990, №1-96, v.82.
2. Bakı Dövlət Universitetinin Elmi Şurasına. – BDU-nun Arxivi. Elmi Şuranın protokolları, 1990, №1-4, v.53.
3. BDU Elmi Şurasının 6 dekabr 1991-ci il tarixli iclasının 4 saylı protokolundan. – BDU-nun Arxivi. Elmi Şuranın protokolları, 1991, №1-5, v.109.
4. BDU-nun Böyük Elmi Şurasının 27.11.1992-ci il tarixli qərarı. – BDU-nun Arxivi. Elmi Şuranın protokolları,1992, №2-3, v.37-38.
5. "Bakı Universitetinin Xəbərləri" adlı elmi jurnalın təsis edilməsi və redaksiya heyətinin yaradılması haqqında /R-13 14.05.91/ əmrin II bəndində dəyişikliklər aparılması məqsədilə. – BDU-nun Arxivi, Əmrlər, 1994, v.37.
6. "BDU-nun Xəbərləri" jurnalının fəaliyyətinin genişləndirilməsi haqqında. 26.09.1997. – BDU-nun Arxivi, Əmrlər, 1997, v.50.
7. "Bakı Universiteti xəbərləri" elmi məcmuəsinin işinin yaxşılaşdırılması haqqında. – BDU-nun Arxivi, Əmrlər, 1997, v.49.
8. Bakı Dövlət Universiteti. 1919-1994. Xüsusi Buraxılış. Red. M.Ələsgərov. Bakı: BDU nəşriyyatı, 1994, 144 s.
9. BDU-nun aspiranturasına qəbul haqqında məlumat (1992-ci il). – BDU-nun Arxivi. Elmi Şuranın protokolları, 1992, №2-3, v.19-20.
10. Elmi-tədqiqat laboratoriyasının açılması haqqında. – BDU-nun Arxivi, Əmrlər, 1995, v.81.
11. Elmi-pedaqoji kadrların seçilməsi və istifadə olunması sahəsində Bakı Dövlət Universitetinin işi barədə. – BDU-nun Arxivi. Elmi Şuranın protokolları, 1991, №6-9, v.56-60.
12. Əmrahov Z., İsmayılov S. Bakı Dövlət Universitetinin tarixi. Bakı: Elm və təhsil, 2019, 324 s.
13. "Xəzər" elmi-tədqiqat informasiya mərkəzinin yaradılması haqqında. 26.02.98. – BDU-nun Arxivi, Əmrlər, 1998, v.92.

14. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti üzrə əmr. 18.02.91. – BDU-nun Arxivi. Əmrlər, 1991-1992, v.135.
15. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin 10.02.1993-cü il tarixli iclasının 4 saylı protokolu. – BDU-nun Arxivi. Elmi Şuranın protokolları, 1993, №4-6, v.6.
16. M.Ə.Rəsulzadə adına BDU-da aspirantura-dissertantura təhsili yolu ilə elmi və elmi-pedaqoji kadrların hazırlanması vəziyyəti haqqında Elmi Şuranın qərarı. – BDU-nun Arxivi. Elmi Şuranın protokolları, 1994, №6-10, v.179.
17. M.Ə.Rəsulzadə adına BDU-nun aspiranturasına və dissertanturasına qəbulun keçirilməsi haqqında (1994-cü il). – BDU-nun Arxivi, Elmi Şuranın protokolları, 1995, №4-7, v.9.
18. M.Ə.Rəsulzadə adına BDU-da aspirantların və gənc tədqiqatçıların elmi konfransının keçirilməsi haqqında. 25.02.95. – BDU-nun Arxivi, Əmrlər, 1995, v.72.
19. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti rektorunun 04.11.94-cü il tarixli R-45 saylı əmri. – BDU-nun Arxivi, Əmrlər, 1994, v.31.
20. Məhərrəmov A. Bakı Dövlət Universiteti-90. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2009, 210 s.

САМИР ИСМАИЛОВ
Доктор философии по истории,
доцент Бакинского государственного университета

СОСТОЯНИЕ ПОДГОТОВКИ НАУЧНО-ПЕДАГОГИЧЕСКИХ КАДРОВ В БАКИНСКОМ ГОСУДАРСТВЕННОМ УНИВЕРСИТЕТЕ В ПЕРВЫЕ ГОДЫ НЕЗАВИСИМОСТИ (1991-1994 ГГ.)

В упомянутой статье исследуется состояние подготовки научно-педагогических кадров в Бакинском государственном университете в 1991-1999 годах. Из исследований известно, что в первые годы независимости в Бакинском государственном университете возникли серьезные трудности с положением научно-педагогических кадров и подготовкой научно-педагогических кадров. С одной стороны, на это повлияла напряженная общественно-политическая ситуация в республике в результате оккупации территорий агрессором Арменией, а с другой – отсутствие должной организации подготовки кадров в университета на фоне глубоких социально-экономических трудностей. В то же время, после принятия нового Закона Азербайджанской Республики «Об образовании», переход к многоуровневой системе образования в высших школах республики создал переломный момент в подготовке научно-педагогических кадров университета. и в эффективной организации научно-исследовательской работы.

Ключевые слова: БГУ, высшее учебное заведение, научно-педагогические кадры, независимость, аспирант, докторантура.

SAMIR ISMAYILOV
PhD, Associate professor of Baku State University

THE POSTURE OF TRAINING OF SCIENTIFIC AND PEDAGOGICAL PERSONNEL AT BAKU STATE UNIVERSITY IN THE FIRST YEARS OF INDEPENDENCE (1991-1994)

In the mentioned article, the state of training of scientific-pedagogical personnel at Baku State University during the years 1991-1999 is investigated. It is known from the research that in the first years of independence, there were serious difficulties in the situation of scientific-pedagogical personnel and the training of scientific-pedagogical personnel at Baku State University. On the one hand, this was influenced by the tense socio-political situation in the Republic as a result of the occupation of territories by the aggressor Armenia, and on the other hand, it was influenced by the lack of proper organization of personnel training in the university against the background of deep socio-

economic difficulties. At the same time, after the adoption of the new Education Law of the Republic of Azerbaijan, the transition to the multi-level education system in the higher schools of the Republic created a turning point in the training of scientific and pedagogical personnel of the University, and in the efficient organization of scientific and research work.

Keywords: BSU, higher education institution, scientific-pedagogical personnel, independence, PhD student, doctoral studies.

Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.
Məqalə Redaksiya heyətinin qərarı ilə nəşr edilib.